## 2019-cu il əcnəbilərin sayında artımla başladı

Azərbaycana gələn əcnəbilərin sayında 2018-ci ildə müşahidə olunan artım 2019-cu ilin yanvarında da davam edib. Dövlət Sərhəd Xidmətindən alınan məlumata əsasən yanvar ayında ölkəmizə 191,4 min xarici vətəndaş gəlib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5 min nəfər və ya 3% çoxdur.

Əcnəbilər arasında ən çox artım 55,7 min nəfər və ya 22% artımla Gürcüstandan gələnlərdə müşahidə olunur. Əhəmiyyətli surətdə artım olan digər bazarlar Cənubi Asiya və Orta Asiyadır - bu regionlardan 12,5 min səyahətçi gəlib ki, bu da müvafiq olaraq 60,9% və 35,4% artım deməkdir. Ən yüksək artım tempi Cənubi Asiya ölkələri olan Pakistan və Hindistana, Mərkəzi Asiyadan Qazaxıstan və Türkmənistana məxsusdur. Yanvar ayında bu ölkələrin hər birindən 2000-dən çox xarici vətəndaş gəlib.

Bəzi ölkələrdən gələn xarici vətəndaşların sayında isə azalma mövcuddur. Bu hal əsasən Türkiyə və İrandan gələnlər üçün xarakterikdir. Belə ki, Türkiyədən gələnlərin sayı 21,5 min nəfər təşkil edib və bununla da 11,5% azalma baş verib.

İrandan gələn səyahətçilərin sayında 2018-ci ildən başlayaraq müşahidə olunan azalma 2019-cu ilin yanvar ayı üçün də davam etməkdədir. 2018-ci ilin yanvar ayı ilə müqayisədə 2019-ci ilin yanvarında bu ölkədən 23% və ya 3 min nəfər az qonaq gəlib.

Yaxın Şərq ölkələrindən gələnlərin sayında da 1,5 min nəfər və ya 7% azalma müşahidə olunub. Azərbaycan turizminin ən vacib bazarlarından olan Rusiyadan gələnlərin sayı isə demək olar ki, dəyişməyib: qeyd olunan dövrdə Rusiyadan Azərbaycana 56,3 min nəfər səyahət edib.

**Qrafik 1: 2019 və 2018-ci ilin yanvar ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin yanvar ayında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | 2018 |
|---|---|---|
| | Yanvar | Yanvar |
| Rusiya | 56 339 | 56 990 |
| Gürcüstan | 55 685 | 45 679 |
| Türkiyə | 21 481 | 24 276 |
| Yaxın Şərq | 20 375 | 21 899 |
| İran | 10 336 | 13 437 |
| Mərkəzi Asiya | 6 615 | 4 886 |
| Cənubi Asiya | 5 865 | 3 645 |
| Şərqi Avropa | 5 351 | 6 125 |
| Qərbi Avropa | 5 138 | 5 246 |
| Amerika | 1 313 | 1 366 |
| Şimal-Şərqi Asiya | 1 235 | 1 008 |
| Afrika | 765 | 499 |
| Cənub-Şərqi Asiya | 571 | 545 |
| Digər | 355 | 312 |
| **CƏMİ** | **191 424** | **185 913** |